Azərbaycan.-2025.- 31 iyul (№ 157).- S.2.

# Milli Məclisin Sədri Sahibə Qafarova Parlament Sədrlərinin VI Dünya Konfransının ikinci günündə ümumi müzakirələrə sədrlik edib

**Milli Məclisin Sədri Sahibə Qafarova iyulun 30-da İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçirilən Parlament Sədrlərinin VI Dünya Konfransının ikinci günündə ümumi müzakirələrə sədrlik edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müzakirələrdə 30-a yaxın ölkənin parlament sədrləri çıxış ediblər.

Sonra müzakirələr Çin Xalq Respublikası Ümumçin Xalq Nümayəndələri Məclisinin Daimi Komitəsinin Sədri Jao Lejinin sədrliyi ilə davam edib.

Qeyd edək ki, Parlament Sədrlərinin VI Dünya Konfransı Birləşmiş Millətlər Təşkilatının Cenevrə ofisində BMT və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçirilir. Konfransda ümumilikdə 120 nümayəndə heyəti, o cümlədən 102 ölkənin parlament sədrləri, 38 ölkənin vitse-spikerləri, həmçinin Parlamentlərarası İttifaqın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər.

*"Azərbaycan"*

